# Aprel ayı üzrə statistika: Yaxın Şərqdən 12% daha çox qonaq

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə aprel ayında Azərbaycana gələn əcnəbilərin sayı 2018-ci ilin aprel ayına nisbətən 8.9% və ya 19.4 min nəfər artaraq 238 minə çatıb. Ən böyük artım (22% və ya 10.2 min) Gürcüstandan gələn ziyarətçilərin arasında müşahidə olunur. Yaxın Şərq regionundan 30 min xarici vətəndaşın gəlməsi ilə 12% artım baş verib: bu artım əsasən BƏƏ (16.2%), Səudiyyə Ərəbistanı (101.3%) və İsraildən (70.1%) gələn qonaqların sayının artması ilə bağlıdır. Cənubi (35.4%) və Orta Asiyadan (44.2%) gələn səyahətçilərin sayı yüksək sürətlə artmaqdadır. Cənubi Asiyadan Hindistan, Orta Asiyadan isə Türkmənistan müvafiq olaraq 95% və 144% artımla diqqət çəkir. Türkiyədən gələn səyahətçilər üçün 10% artım müşahidə olunur - apreldə bu ölkədən gələnlərin sayı 25.2 min nəfər təşkil edib.

Qrafik 1-də göstərildiyi kimi, Rusiya və İrandan gələn səyahətçilərin sayı müvafiq olaraq 3.2 və 1.8 min azalıb.

**Qrafik 1: 2019 və 2018-ci ilin aprel ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2019-cu ilin ilk dörd ayının nəticələrinə görə Azərbaycanı ziyarət etmiş əcnəbilərin sayında artım mövcuddur. Belə ki, 2018-ci ilin eyni dövrü ilə müqayisədə xarici qonaqların sayı 2 min nəfər artıb və hesabat dövrü ərzində ölkəni ümumən 848 min xarici vətəndaş ziyarət edib. Apreldə olduğu kimi yanvar-aprel aylarında Gürcüstan, eləcə də Cənubi və Orta Asiya ən çox artım olan ölkələrdir. Bu bazarlardan səyahət edənlərin sayı müvafiq olaraq 22.6%, 51.4% və 31.9% artıb. Hindistan 15.1 min və Pakistan 11.8 min nəfərlə Cənubi Asiyanın, Türkmənistan 12.0 min və Qazaxıstan 10.5 min nəfərlə Mərkəzi Asiyanın əsas səyahətçi mənbələrdir.

2019-cu ilin ilk dörd ayının nəticələrinə görə bəzi ölkələrdən, xüsusilə də Rusiya və İrandan gələnlərin sayında azalma müşahidə olunur. Rusiyadan gələnlərin sayı 3.4% azalaraq yekunda 231 min nəfər təşkil edib. Ən böyük azalma (40%) isə İrandan gələnlər arasında mövcuddur. Yaxın Şərq ölkələrindən gələn xarici vətəndaşların sayı 7.5 min və ya 8% azalıb. Türkiyədən gələn qonaqların sayı cüzi azalaraq (2%) 94 min nəfər təşkil edib.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-aprel ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin aprel ayında və 2019-cu ilin yanvar-aprel aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | Aprel | Yanvar-Aprel | Aprel | Yanvar-Aprel |
| Rusiya Federasiyası | 64 487 | 231 411 | 67 642 | 239 456 |
| Gürcüstan | 56 548 | 227 233 | 46 377 | 185 286 |
| Yaxın Şərq | 30 601 | 88 135 | 27 305 | 95 670 |
| Türkiyə | 25 248 | 94 028 | 22 930 | 95 663 |
| Qərbi Avropa | 12 909 | 29 843 | 11 490 | 28 058 |
| İran | 11 825 | 68 197 | 13 626 | 112 784 |
| Mərkəzi Asiya | 9 293 | 30 474 | 6 444 | 23 109 |
| Cənubi Asiya | 8 960 | 29 079 | 6 616 | 19 201 |
| Şərqi Avropa | 8 877 | 26 754 | 9 064 | 27 960 |
| Şimal-Şərqi Asiya | 3 029 | 7 493 | 1 770 | 5 071 |
| Amerika | 2 616 | 7 131 | 2 210 | 6 594 |
| Cənub-Şərqi Asiya | 1 159 | 2 961 | 1 009 | 2 732 |
| Afrika | 1 092 | 3 083 | 951 | 2 614 |
| Digər | 817 | 2 080 | 633 | 1 695 |
| **CƏMİ** | **237 461** | **847 902** | **218 067** | **845 893** |